# Pekin Universiteti

Pekin Universiteti (Peking University) Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində yerləşir və ölkənin ən aparıcı ali təhsil ocaqlarından biridir. Pekin Universiteti xalq arasında "Beyda" adlandırılır. Böyük Britaniyanın "Times Higher Education World Reputation Rankings" jurnalının 2016-cı il üzrə reytinq sıralamasında 21-ci, "QS World Universities Rankings" jurnalının 2015-2016-cı tədris ili üçün reytinq cədvəlində 41-ci yerdədir. Pekin Universiteti ölkənin milli universitetlərinin 2016-cı il üçün reytinqində 2-ci, Asiyanın nüfuzlu ali məktəblərinin reytinq sıralamasında 3-cü yerdə qərarlaşıb. Ali məktəb Çin universitetlərini birləşdirən "C9 Liqası"na daxildir. Universitet Çikaqo Universiteti ilə birgə Şərqi Asiya İncəsənət Mərkəzi, YUNESKO ilə birgə "Pekin Universiteti, kompüter qrafikası və dizayn", Çin mədəniyyəti, tarixi, dili və s. sahələri yaxından öyrənmək istəyənlər üçün Stenford Universiteti ilə "Pekində Stenford proqramları" və "Stenford-Pekin universitetləri yay proqramları", Kornell Universiteti ilə Çin və Asiya-Sakit Okean Tədqiqatları, Yel, Vaseda universitetləri və London İqtisadiyyat Məktəbi ilə, Miçiqan Ştatı Universiteti ilə birgə akademik proqramlar və digər bir çox elmi-tədqiqat layihələrində iştirak edir.

**Yerləşir:** Çin Xalq Respublikası, Pekin şəhəri
**Yaranma tarixi:** 1898-ci il
**Tipi:** Dövlət
**Akademik heyət:** 4664 nəfər
**Tələbələrin ümumi sayı:** 40148 nəfər
**Rəsmi saytı:** www.pku.edu.cn



## Tarixi

Pekin Universiteti 1898-ci ilin dekabrında "Yüz gün islahatları" dövründə yaradılıb və ilkin olaraq Pekin İmperial Universiteti adı ilə fəaliyyət göstərib. 1902-ci ildə universitetin hazırda Pekin Pedaqoji Universiteti kimi tanınan pedaqogika fakültəsi açılıb.

1912-ci il Sinxay inqilabından sonra Pekin İmperial Universiteti Pekin Milli Universiteti adlandırılır. 1917-ci il yanvarın 4-də tanınmış alim Tsay Yuanpey bu ali təhsil ocağının rəhbəri təyin edilir. Onun təşəbbüsü ilə Pekin Milli Universiteti 14 departament və 2000-dən artıq tələbəsi ilə ölkənin ən böyük ali təhsil ocağına çevrilir. Alman akademik təhsil modelindən ilhamlanmış Tsay universitetə Hu Şi, Çen Duxui və Lu Sin kimi şəxsləri dəvət edir. 1919-cu ilin mayında Dördüncü May Hərəkatı iştirakçılarının əsas hissəsini Pekin Milli Universitetinin tələbələri təşkil edirlər. Beiyanq hökuməti bu cür hadisələrə son qoymaq məqsədi ilə Tsayı vəzifəsindən azad edir.

1920-ci ildən başlayaraq Pekin Milli Universitetinə qızlar qəbul edilirlər. Pekin Milli Universiteti Nankin Universitetindən sonra Çində qızların qəbul edildiyi ikinci ali məktəb olur. 1937-ci il ikinci Çin-yapon müharibəsi dövründə Pekin Universiteti Çanşa əyalətinə köçür və Tsinxua, Nankin universitetləri ilə birləşdirilərək Çanşa Müvəqqəti Universiteti adlandırılır. 1938-ci ildə isə ali məktəb Kunmin şəhərinə köçürüldükdən sonra Milli Cənub-Qərb Birləşmiş Universiteti adı altında fəaliyyət göstərir.

İkinci Dünya müharibəsi bitdikdən sonra Pekin Milli Universiteti Pekin şəhərinə köçürülür. Həmin dövrdə universitetin tərkibində İncəsənət, Elm, Tibb, Mühəndislik və Kənd Təsərrüfatı məktəbləri, Humanitar Elmlər İnstitutu fəaliyyət göstərib, tələbələrin sayı 3000-ə qədər artıb.

1952-ci ildə Çin Xalq Respublikası yaradıldıqdan sonra Yençinq Universiteti Pekin Milli Universiteti ilə birləşdirilir, Pekin Universitetinin adından "milli" sözü götürülür. Həmin il universitet Pekin şəhərinin mərkəzindən Yençinq kampusuna köçürülür. 1966-cı ildə ali məktəbdə Mədəni İnqilab baş verib, 1966-1970-ci illər arasında dərslər dayandırılıb.

2000-ci ildə Pekin Tibb Universiteti Pekin Universitetinə birləşdirilərək Pekin Universitetinin Təbiət Elmləri Kampusu adlandırılıb. Həmin kampusda hazırda 8 birləşdirilmiş xəstəxana və 12 klinika fəaliyyət göstərir. 2001-ci ildə Şençjendə universitetin peyk şəhərciyi açılıb. 2004-cü ildə ali məktəbin ikinci Biznes Məktəbi yaradılıb və bir müddət sonra həmin məktəbə Beyda HSBC Biznes Məktəbi adı verilib.

## Universitet bu gün

Hazırda Pekin Universitetinin yerləşdiyi Yan Yuan və Yençinq kampusu Pekin şəhərinin şimal-qərbində, bir çox kollec və universitetin cəmləşdiyi Haidian ərazisində fəaliyyət göstərir. Ali məktəb 274 hektar sahəni əhatə edir. Kampusun yaxınlığında Pekinin tanınmış qədim bağları, sarayları (Yay Sarayı, Qədim Yay Sarayı) yerləşir.

Tsin sülaləsinə aid qədim, ənənəvi Çin üslubunda yaşıllaşdırılmış bağda yerləşən Pekin Universitetinin ərazisində qədim tikililər, paqodalar (Budda məbədi) mövcuddur. Kampusa giriş şərq, qərb, cənub darvazalarından mümkündür, lakin onların arasında ən məşhuru divar naxışları ilə işlənmiş qərb darvazasıdır. Kampus Veymin gölü ilə əhatələnib. Pekin Universitetinin kampusu qonşuluqda yerləşən Tsinxua Universitetinin kampusu ilə birgə dünyanın ən gözəl kampuslarından hesab olunur.

Əsas kampusdan əlavə, Süe Yuan ərazisində universitetin Sağlamlıq Elmi Mərkəzi yerləşir. Elmi tədqiqatlar üçün nəzərdə tutulmuş bu şəhərcik əsas kampusdan fərqli olaraq o qədər də estetik görünüşə malik deyil. 2001-ci ildə istifadəyə verilmiş Şençjen kampusu Şençjen şəhərinin şimal-qərb hissəsində yerləşir. Şençjen Ali Məktəbi Pekin Universitetinin bu kampusda fəaliyyət göstərən əsas obyektlərindən biridir.

Pekin Universiteti bakalavriatura səviyyəsində 95, magistratura səviyyəsində 199, doktorantura səviyyəsində isə 173 sahə üzrə ixtisaslaşmış 30 kollec (Riyaziyyat elmləri, Fizika, Kimya, Təbiət elmləri, Şəhər və Ətraf Mühit elmləri, Yer və Kosmos, Elektronika və Kompüter elmləri, Mühəndislik, Proqram Təminatı və Mikroelektronika, Ekologiya elmləri və Texnika, Arxeologiya və Muzeyşünaslıq, Xarici dillər, İncəsənət, Çin dili xarici dil kimi, Beynəlxalq tədqiqatlar, İqtisadiyyat, Quanqhua İdarəetmə, Hüquq, Dövlətin idarə olunması, Marksizm, Jurnalistika və Kommunikasiya, Yuanpey, Qabaqcıl fənlərarası tədqiqatlar, Təhsil Ali, Şençjen Ali və s.) və 12 departamentdən (Psixologiya, Çin dili və ədəbiyyatı, Tarix, Fəlsəfə, Sosiologiya, İnformasiya idarəetməsi, Bədən tərbiyəsi və s.) ibarətdir. Burada fundamental elmlərin tədqiqat və tədrisinin daha yüksək səviyyədə olmasına baxmayaraq, tətbiqi elmlər də müvəffəqiyyətlə inkişaf etməkdədir. Hazırda universitetdə 216 institut (Kompüter elmləri və Texnologiyaları, Genişləndirilmiş Texnologiya, Demoqrafik Tədqiqatlar, İqtisadi Tədqiqatlar, Sosiologiya Tədqiqi, Molekulyar Tibb, Kavli Astronomiya və Astrofizika və s.), 2 Milli Texniki Elmi Tədqiqat Mərkəzi, 12 milli laboratoriya fəaliyyət göstərir.

Pekin Universitetinin kitabxanası 11 milyon cild kitab və digər materiallara malikdir, ölkənin ən böyük kitabxanasıdır. Universitet kitabxanası Asiyanın ən zəngin kitabxanalarından hesab olunur. Universitetin ərazisində Universitet tarixi, Artur Sakler adına İncəsənət və Arxeologiya muzeyləri mövcuddur. Muzeylərdə Çinin ən qədim dövrlərindən başlayaraq müxtəlif inkişaf mərhələlərini əhatə edən dəfn abidələri, qəbirlər, sərdabələr, insan qalıqları və digər tapıntılar, olkənin tarixinə aid zəngin kolleksiya qorunur.

Pekin Universitetinin administrasiyasına Prezident ofisi, Universitet Şurası, İnkişaf və Planlaşdırma, Tələbə İşləri, Təhlükəsizlik, Pedaqoji Administrasiya, Elmi Tədqiqatlar, Sosial Elmlər, Ali Təhsil (magistratura və doktorantura, diplomdansonrakı təhsil), Fasiləsiz təhsil, İnsan resursları, Maliyyə, Beynəlxalq münasibətlər, Laboratoriya və Təchizatın İdarəolunması, İnformatizasiya, Logistika Xidməti, Daşınmaz Əmlakın İdarəolunması, Tikinti, Elm və Texnologiyanın İnkişafı idarələri, Universitetə Sərmayə Qoyan Müəssisələrlə İcra Komitəsi, Həmkarlar İttifaqı daxildir. Pekin Universitetinin prezidenti Lin Jianhuadır. Pekin Universitetində gənclərin həyatı rəngarəngliyi və zənginliyi ilə seçilir. Burada 200-dən çox tələbə təşkilatı, idman komandaları və digər birliklər fəaliyyət göstərir. İl ərzində universitetdə müxtəlif festivallar, yarışlar, ekskursiyalar, iməciliklər, konsertlər, ədəbi, mədəni gecələr, müsabiqələr və s. tədbirlər təşkil olunur. Əcnəbi tələbələr ölkələrinin mədəniyyətini təcəssüm etdirən sərgi və digər məclislər hazırlayır. Bu cür tədbirlər tələbələr arasında dostluq hisslərini, liderlik bacarığını inkişaf etdirir, gənclərin dünyagörüşünü artırır, onlara zəngin həyat təcrübəsi bəxş edir. Ali məktəb dünyanın yüksək keyfiyyətli təhsil verən ən müasir universitetlərinin beynəlxalq "Universitas 21" şəbəkəsində iştirak edir. Universitetin yaxın onillikdə başlıca məqsədi planetin ən yaxşı ali məktəbləri arasında ön sırada olmaqdır.

## Elmi nailiyyətləri

Pekin Universitetinin astronomları 2015-ci ildə erkən kainat dövrünə aid "qara deşik" - parlaq kvazar kütləsi aşkar ediblər. Universitetin alimləri Amerikanın Virciniya Universitetinin əməkdaşları ilə birlikdə karbonun allotropik modifikasiyasını - pentaqrafeni kəşf ediblər. Ali məktəbin alimləri amerikalı həmkarları ilə birlikdə infarkt miokardın erkən diaqnostikası üzrə kolloidal test zolaqlarını işləyib hazırlayıblar. Pekin Universitetinin alimləri 5-HTA1 genini aşkar ediblər. Tədqiqat nəticəsində məlum olub ki, "tənhalıq geni" adlandırılan bu gen heç də bütün insanlarda yoxdur. 5-HTA1 gen daşıyıcısı olan insanlar başqalarına nisbətən 20 faiz daha çox tənha həyat sürürlər. Bu genin kəşfi 2014-cü ildə elmi sıçrayış hesab olunub. Universitetdə sonradan implantant kimi istifadə olunan fəqərə sümüyünün təsviri dərc olunub. Alimlər 3D printerdə çap olunmuş fəqərənin dünyada ilk dəfə uğurlu inplantasiyasını həyata keçiriblər.

## Büdcəsi və təhsil haqları

Pekin Universitetində 2015-2016-cı tədris ilində təhsil alan tələbələrin ümumi sayı 40148 nəfər təşkil edib. Ali məktəbdə illik təhsil haqları bakalavr səviyyəsində (4 il) 26000-30000, magistratura səviyyəsində (2-3 il) 29000-33000 yuan təşkil edir. 4-6 illik doktorantura təhsili isə tələbələrə 32000-40000 yuana başa gəlir. 1952-ci ildən Pekin Universiteti xaricdən əcnəbi tələbə qəbul edən ilk Çin ali məktəbidir. Hazırda universitetdə dünyanın 80 ölkəsindən 5772 əcnəbi tələbə təhsil alır. Digər ölkələrdən ali məktəbdə 951 nəfər mütəxəssis, alim çalışır. Universitet dünyanın 50 ölkəsindən 200-dən artıq ali məktəblə geniş əlaqələrə malikdir. Ali məktəbdə 5513 müəllim, onların arasında 1488 professor, 1889 dosent, Çin Elmlər Akademiyasının 53, Çin Mühəndislik Akademiyasının 7, Üçüncü Dünya Elmlər Akademiyasının (TWAS) 14 üzvü çalışır.

Pekin Universitetində digər ölkələrin aparıcı universitetləri ilə sıx əməkdaşlıq nəticəsində 4 elmi mərkəz yaradılıb. Universitet alimlərinin 36 elmi jurnalda 2170 elmi məqaləsi dərc olunub. Elmi tədqiqatlardan əldə olunan gəlirlər son 5 ildə 769.25 milyon yuana çatıb.

Pekin Universiteti bu gün professorların, elmi rəhbərlərin, akademik və elmlər doktorlarının, eləcə də ixtisas istiqamətləri və laboratoriyalarının sayına görə ölkədə birinci yerdədir.

Universitetdə hər bir əməkdaş üçün kompleks xidmət resursları təklif olunur, insan resursları proqramları nəticəsində işçilərin cəlb edilməsi, inkişafı, yüksək əməkhaqqı, müxtəlif mükafatlarla onların həvəsləndirilməsi, iş təyinatları və s. tədbirlər həyata keçirilir. Ali məktəbin əlaçı tələbələri üçün nəzərdə tutulmuş "Gəns İstedadlar Planı", "Çeunq Konq Alimlər Proqramı" və s. proqramlar mövcuddur. Universitetdə tələbələr üçün intensiv Çin dili kursları təşkil olunub, onlara həftədə 36 saat olmaqla Çin dili tədris edilir, bu zaman onların ilkin dil bilikləri tələb olunmur. Tələbələr universitetin bütün infrastrukturundan istifadə edə bilərlər.

Pekin Universitetinə qəbul olunmaq üçün başlıca şərtlərdən biri Çin dili bilikləridir. Bütün bakalavriat proqramları və magistr proqramlarının əksəriyyəti Çin dilindədir. Tələbələr dil bilikləri üzrə uğurlu test imtahanlarının nəticələrini (ən azı 4-5 bal) təqdim etməlidirlər. Bakalavr səviyyəsinə qəbul olunmaq üçün tam orta təhsil haqqında attestat (ən yüksək qiymətlər) təqdim olunmalıdır. Çində tam orta təhsil 11 il olduğundan bütün ölkələrin verdiyi attestatlar qəbul olunur. Sənədlər hər il martın 8-31-də təqdim edilir. Abituriyentlərdən son 3 ilin qiymət cədvəli tələb olunur. Aprel ayında riyaziyyat, Çin və ingilis dili üzrə qəbul imtahanları keçirilir. Qəbul olunanlar üçün müsahibə təşkil olunur. Hazırlıq kurslarını uğurla başa vuranlar qəbul imtahanlarından azad olunurlar. Magistr və ya doktorantura səviyyəsinə qəbul olunmaq istəyənlərdən isə müvafiq diplom və ingilis dilindən uğurla verilmiş test imtahanlarının nəticələri ( TOEFL PBT- minimum 627 bal, TOEFL CBT- 263 bal, TOEFL iBT-107, İELTS - 7,0, GRE-1300 bal) tələb olunur. Doktorantura səviyyəsinə qəbul olunmaq istəyənlərdən həm də dərc olunmuş elmi məqalə (tədqiqat layihəsi) tələb olunur.

Tələbələr Pekin Universitetinin tərəfdaş olduğu digər ölkələrin ali məktəblərində təcrübə keçə, mübadilə proqramlarında iştirak edə bilərlər. Bundan əlavə, Pekin Universitetinin məzunlarına Amerika, Kanada, Fransa, Koreya universitetləri ilə birgə həyata keçirilən ikili diplomlar da verilir.

Hər il Pekin Universitetinə 2000-dən çox əcnəbi tələbə daxil olur. Onlar əsasən Qərbi Avropa, Avstraliya, Afrika, Şimali və Cənubi Amerika, Asiyanın bütün hissələrindən olan gənclərdir. Əcnəbi tələbələrin məskunlaşdıqları yataqxanalar Şao Yuan ərazisində yerləşir.

Pekin Universitetinin məzunlarının 96 faizi ali məktəbi başa vurduqdan ilk 3 ay sonra yüksək əməkhaqqına malik işlə təmin olunur. Bu fakt universitetin işəgötürənlər arasında yüksək nüfuzundan xəbər verir.


Elmi-tədqiqat laboratoriyasında



Tələbələr marafonda


2016-cı ilin məzunları

## Məşhur məzunları

Dünya üzrə tanınmış Pekin Universiteti müasir Çin ədəbiyyatı, poeziyası və incəsənətinə böyük töhfələr bəxş edib. Fəaliyyəti dövründə universitet özünü intellektual azadlıq məkanı kimi tanıdıb. Bu ali təhsil ocağını Lu Sin, Mao Tzedun, Hu Honqminq, Hu Şi, Li Da-Çjao, Çen Duxiu kimi dahi şəxslər, eləcə də Nobel mükafatçıları Yuan Tseh Li, Tzun-Dao Li və Yan Çen Nin bitirib. "Baidi" şirkətinin direktorlar şurasının sədri, baş direktori Robin Li, ABŞ-ım 75-ci maliyyə naziri Timoti Qayner, Çinin görkəmli siyasi xadimi Bo Silay və bir çox müasir elm, mədəniyyət, incəsənət xadimləri bu ali məktəbdə təhsil alıblar. Son yüz il ərzində universitetin 400-dən çox məzunu Çinin müxtəlif nüfuzlu ali məktəblərinin prezidenti vəzifəsində çalışıb (Tsinxua Universitetinin prezidenti Luo Cialun, Jenmin Universitetinin prezidenti Yuan Baohua, Jecianq Universitetinin prezidenti Tsyan Sanqianq, Fudan Universitetinin prezidenti Çjan Jiranq, Nankin Universitetinin prezidenti Den Ueizao, Çin Elm və Texnologiya Universitetinin prezidenti Quan Ueiyan və s.).

Pekin Universiteti bütün elm və tədris sahələrinin cəmləşdiyi tədqiqat və təhsil mərkəzidir. Universitetin məqsədi XXI əsrdə dünyanın bir nömrəli ali məktəbinə çevrilmək, Çinin müasirləşdirilməsinə, dünyanın iqtisadi, sosial və texnoloji inkişafına öz töhfəsini vermək, yeni-yeni gənc istedadları aşkarlayıb dünyaya təqdim etməkdən ibarətdir.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*